Ədalət.- 2023.- 17 iyun.- S.5.

# Ümidi Şəhid, qazancı Vətən olan MAYA...

**Həyat çox qəribədir, insanlar da çox qəribədir. Həyatın qəribəliyi odur ki, səni sınaqlara çəkir, səni müxtəlif insanlarla, xarakterlərlə, düşüncə və münasibətlərlə üz-üzə qoyur. İnsanlar ona görə qəribədir ki, su kimi keçən ömrünü tanı(ma)dığın insanların qınağı, ittihamı, çəpəki baxışları naminə istədiyin kimi yox onların istəyinə uyğun qurursan.**

**Heç kəs deyə bilməz ki, yox, mən heç kəsi qınamamışam, filankəsi atdığı addım, yaşadığı həyatla bağlı ittiham etməmişəm. Etmisiniz! Etmişəm! Elə bilmişik ki, "olum və ölüm" zaman kəsiyində həyatını necə yaşamağına insan özü qərar verir. Amma elə deyilmiş...**

### *Müharibənin filmi*

Ötən gün baxdığım bir film bir insanı gözümdə dəyişdirib tam başqa bir insan elədi...

Həmin insana olan düşüncəm, münasibətim, tövrlərim dəyişdi. Bir insanın görmədiyimiz tərəfləri gördüyümüz tərəflərindən nə qədər fərqli olarmış... Başdan başlayaq: Deməli, 10 iyun "Elmlər Akademiyasının parkı" deyə tanıdığımız açıq məkanda "Maya" filminin təqdimatı keçirildi. Məlumat üçün bildirim ki, ssenari müəllifi və rejissoru Xəyal Rzaya aid olan filmdə Birinci və İkinci Qarabağ müharibəsinin təsiri altında qalan Azərbaycan qadınının həyatından bəhs edilir. Azərbaycan qadınını isə Maya Quliyeva təmsil edir. Yeri gəlmişkən, filmin operatoru Rafiq Əliyev, operator assistenti Kənan Fərzəliyev, montaj rejissoru Aydan Əhmədova, prodüseri Tahir Tahiroviç, bədii rəhbəri isə görkəmli kinorejissor, Xalq artisti Oktay Mir Qasımdır.

### *Beləliklə, film başlayır...*

Gözəlliyi, səmimiliyi, mehribanlığı ilə çoxdan tanıdığımıza inandığımız Maya danışır; Sarışın saçları gəncliyin tərk etmədiyi gülər üzünün, ağ bənizinin bir hissəsinə tökülüb.

Gözləri qəribə - hələki anlaya bilmədiyim ifadələrlə doludur. Çünki Maya ötüb-keçən xatirələrin qoynundadır, uzaqlarda qalmış xatirələrdən danışır. Bir qış günü qapılarını döyən qara xəbərdən danışır, gənc atasının avtomobil qəzasından sağ çıxmadığını kiçik yaşlarında eşidərkən gözləri necə böyüybsə, o xəbəri uzun illərdən sonra tamaşaçısına bildirəndə də gözləri eyni ifadəni alır. Filmin bu hissəsində ilk dəfə gözləri dolur, uzaqlarda, lap uzaqlarda qalmış balaca bir qızın ata sevdası, ata həsrəti damcıya dönüb gilələnir Mayanın gülümsər simasında...

***Maya danışdıqca, gülümsəyir sanki.. söhbətin davamı gəldikcə, hadisələr, keçən- keçmişlər Mayanın dilindən səsləndikcə hiss edirsən ki, əslində filmin qəhrəmanı zərif çiynlərindəki ağır yükü kimsəyə anlatmamaq, yansıtmamaq, açmamaq üçün istifadə etdiyi yeganə çarəsidir təbəssümü:" O vaxt Xocalı soyqırımı baş verdi. Uşaqlar, qadınlar, qocalar düşmən süngüsündən keçirildi. Xalqımız bu faciəyə susmadı, ayağa qalxdı. Əli silah tutan orduya yazılırdı, döyüşə atılırdı. Bizim evdə əli silah tutacaq kişi yox idi. Qardaşlarım isə çox kiçik idi. Bizim evdən döyüşə kim gedəcəkdi ki? Anam körpə qardaşımı Bakıda uşaq evinə qoydu, məndən bir az kiçik olan qardaşımı mənə tapşırıb orduya yazıldı. Bir evin altında 2 məktəbli. Ev süpürməli idim, yemək bişirməli, qardaşıma baxmalıydım. Hələ malımız -heyvanımız da vardı. Oldum , balaca "ev qadını". Anamı əvəz etmək üçün , bütün gün dayanmadan, dincəlmədən işləyirdim". Anasının orduya yazılması, Mayanın uşaqlığını "top- top", "bənövşə-bənövşə" oynamalı olan bu balaca qıza beləcə unutdurub. Sonra da doğma kəndinin işğalı, qarabağlıların taleyinə düşən köçkünlük, yad şəhərlər, yad kəndlər Mayanın da taleyindən yan ötmür.***

### *Köçkünlük*

Köçkünlüyün ağırlığını o köçkünlüyü yaşayanlar bilir. Mənim kimi yurdundan 30 il ayrı qalanlar bilər . Getdiyin ellərdə, obalarda qəriblik duyğusu, doğmalarının, doğma bildiyin insanların, evlərin ağacların, çiçəklərin, hətta o tozlu-torpaqlı, qışda palçıqlı həndarası yolların aralıqların qoxusu , xiffəti ilə gecələri necə səksəkəli yatıb, gündüzləri necə pərişan oyanmağı kimsəyə arzu etmirəm. Yadımdan çıxmamış deyim:Filmin qəhrəmanının 36 dəqiqəyə sığdırılan həyat dramı əvvəldən sona qədər tamaşaçıya təəssüf hissi yaşadır, filmə baxabaxa "kaş ki"lər dilinin ucuna qədər gəlir:" Kaş ki, müharibə olmayaydı, kaş ki, yurdlarımız, evlərimiz işğal olunmayaydı, dağıdılmamaydı, qızlar, qadınlar, uşaqlar , müharibənin o ağırlığının altına girməyəydilər. Kaş ki, Maya Saybalı kənd məktəbini bitirə biləydi, kaş ki, "evcik-evcik" oynamaq yaşında, "evdar qadın" olmayaydı, ordu sıralarına yazılmış anasının ona əmanət etdiyi özündən kiçik qardaşına baxmaq məcburiyyətində qalmayaydı. Kaş ki..." İlk ürkək və yarımçıq sevgi...

***Maya əlçatmaz, ünyetməz günlərdən danışır: Artıq Sabirabadda məskunlaşdıq. Novruz bayramını da bu keçirdik. Evin sahibinin qızlarına qoşulub "qapı pusdu"ya getdik. O vaxt qonşuluqda bir oğlan vardı. Xoşuma gəlirdi. Uşaqlılıq(gülür). O oğlanı ürəyimdə tutub, bir evin pəncərəsinin qarşısında əlimi qulaqlarımdan çəkdim. Evin anası uşağa stolun üstündəki boşqaba əl vurmamağı tapşırırdı: Əl vurma ona, o qonşunun payıdır, qonşuya verəcəyəm. Uşaq ağlınla inandım, bir daha onu düşünmədim".***

### *"Ərəb çadır şəhərciyi"*

Az vaxtdan sonra atəşkəs imzalanır və Mayanın anası uşaqlarının içinə qayıdır. Həm də Bərdədə köçkün şəhərciyinin qurulduğunu xəbərini eşidirlər. Ailə Bərdəyə köçür, köçkünlər üçün salınmış "Ərəb" çadırlarında məskunlaşırlar. Burda köməyə ehtiyacı olan köçkünlərə yardım edən ərəblər çadırlardan "evlər" quraşdırmışdılar. Onlar da 1993-cü ilin soyuq qışını o çadırlarda, ayazı, şaxtanı canında hiss edərək yaşayan minlərlə ailədən, minlərlə uşaqdan biri oldular. Bütün çətinlik və əziyyətlərə baxmayaraq Maya qızlar bulağından su içib gözqamaşdıran bir gözəlliyə sahib olmuşdu. İşıltılı gözlər, nur topası üz, sarı uzun saçlar, qədd-qamət, və təbii ki, bu gözəlliyin içində də bir zəriflik! Şərq qızlarından daha çox slavyan qızlarına bənzəyən Maya nağıllarda deyildiyi kimi, aya deyirdi, "sən çıxma mən çıxacam, günə deyirdi. Sən çıxma, mən çıxacam". Beləcə Mayanın yanından ötən ona gözlərini ona zilləyib baxmaqdan özünü saxlaya bilmirdi.

### *"Baba" - Ərəb Mahmud*

Günlərin bir günü çadır şəhərciyinin təşkilatçılarından biri, təxminən 32-35 yaşı olan qara qıvır saçlı, dərisi saçından azça seçilən, gödək və dolu bədənli bir ərəb də Mayadan gözünü ala bilmədi. Bu 1992-1993-cü illərdə "İslam Nicat Təşkilatı"nın Azərbaycana yardım gətirən üzvlərindən biri idi. Misirli ərəbin gözlərinin qarşısındakı nadidə bir inci idi. Bu incidən isə ərəb vaz keçməyəcəkdi. Yenə də günlərin bir günü həmin ərəb soydaşı olan iş yoldaşlarını Mayagilin evinə elçi göndərdi. Mayanı anasından istədi. Burda... Burda fikrim dolaşır, məntiqim elə "ərəb saçı"na dönür. Bir ana qönçəni xatırladan körpə fidana niyə qıysın ki, gedib, Mayanın əmilərindən "Allah xeyir versin" duası alsın?Körpə balalarını "Allahın ümidinə" buraxıb orduya yazılmasını anladıq. Vətənə xidmətə gedirdi. Halbuki, ananın vəzifəsi o 3 körpəni qorumaq vətəni qorumaq qədər müqəddəs idi.



Bu hissə filmin kuliminasiya nöqtəsidir. Qönçə fidanın 40 dərəcəlik şaxtaya çovğuna atılmasıdır. Tezliklə, Maya gəlinlik nə olduğunu anlamadan gəlin olur. Aralarındakı yaş fərqindənmi, yoxsa, həsrət qaldığı ata -baba ünsiyyətini, mehrini, doğmalığını bu atası yaşındakı ərəbdən umduğu üçünmü bilmirəm, eləcə onu "baba " deyə çağırdı: "Mən də ona "baba" deyə müraciət etmişəm həmişə. 12 ildən çoxdur ayrılmışıq, amma yenə də ona "baba" deyirəm". Özünün dediyi kimi, Mahmud Hassanın həyatına daxil olması ilə artıq uşaqlığı da , gəncliyi də onu tərk etmişdi. İşə gedərkən üzünə qapı bağlamaq, qızın -gəlinin vaz keçilməzi olan ənlik-kirşan qadağası və sıxıntılı digər tələblər:

***"Dəfələrlə düşündüm ki, ayrılım. Amma Azərbaycan qadının bəzəyi ailəsidir , axı, bəs, yenicə doğulan, bütün dərdlərimi, acılarımı mənə unutduran Xalidimi atasızmı böyüdüm?-deyib susurdum. Xalid Sumqayıt şəhərində anadan olsa da. birinci sinfə Bərdədə məcburi köçkünlər üçün salınmış "Ərəb" çadır şəhərciyində gedib. 11-ci sinfə qədər Almatıda yaşayıb. İkinci oğlum Ömər dünyaya gəldi. Xalid və Ömər məni yaşadan arzularım ümidlərim oldu. Az sonra Azərbaycana qayıtdıq. Evsizlik problemi ailədə soyuqluq rüzgarları əsdirirdi. Hər dəfə evimiz olsun deyəndə, deyirdi ki, sən namaz qıl , oruc tut, hicab bağla cənnətdə villamız olacaq. Yaşlandıqca dözülməz olurdu". İntiharın bir addımlığında "Evsizlik" problemi məni anamın şəhərciyindəki 1 otaqlı evinə sığınmağa vadar etdi. Mətbəx boşaldıb ora yerləşdik. Burda da anamla yola getmədi. Hər şeyə əsəbləşirdi. Deyirdi, anana denən otağa girəndə qapını döysün. Deyə bilmirdim. Anamda öz bildiyi kimi otağa girirdi. Artıq evdə danışıq, söz-söhbət başlamışdı. Bir gün bezdim, yoruldum, usandım. Bir "kanistr" nefti gətirib anamla "baba"nın qarşısına qoydum. Dedim, bir də dava eləsəniz, özümü yandıracağam. Yenidən Bərdəyə - kirayə evə köçdük. Xalid böyüyürdü. Artıq ümidlərim də dirçəlirdi. Qərarımı verməli idim. Artıq bu əzabı çox yaşamağa gücüm çatmırdı. Boşandıq. Xalidim- gözümün ilk "ovu" , həyatımın mənası, həyatımın hər şeyi, ümidim, pənahım, köməyim harayım! Biz elə bil tay-tuş idik, dost idik, sirdaş, bacı-qardaş idik. Bütün xəyallarım , arzularım onda cəmlənmişdi".***

### *Ümidim Xalid Hassan!*

Mayanın mediaya müsahibəsi: Xalid Hassan 26 yanvar 1995-ci ildə Sumqayıt şəhərində anadan olub. Xallım 6-7 aylıq olanda babasının (onlar atalarına baba deyirdilər) işi ilə əlaqədar olaraq biz Qazaxıstana köçdük. Xallımla birlikdə iki ildə bir gəlirdim Vətənə. O zaman Xalid 1-ci sinfə gedəndə Azərbaycana qayıtmağıma, onun burada məktəbə getməsinə səbəb bəlkə baba da qayıdar burda yaşayarıq deyə fikirləşməyim olub. Amma o Almatıdakı işinə görə qayıtmaq istəmədi. Dedi, mənim işim burdadır. Sonra mən Xalidlə yenə qayıtdım Almatıya. Xallım orta məktəbin 10-cu sinfinəcən Almatı şəhərində oxuyub. Evdə Azərbaycan dilində danışır, öz yerli kanallarımıza baxırdım ki, uşaq həm dilimizi, həm də buraları yadırğamasın. Elə oldu ki, biz həmişəlik Azərbaycana qayıtdıq. Artıq 3-4 yaşında Ömərimiz də vardı. Xalid 11-ci sinfi Ağdam rayon 2 nömrəli məktəbdə bitirib. Bu dəfə məktəb Bərdə şəhərində deyil, Ağdamda dövlətin köçkünlər üçün saldığı qəsəbələrin birində - Bənövşələr qəsəbəsində yerləşirdi.



Mənim anama da bu qəsəbədə ev verilmişdi deyə biz onun 1 otaqlı evində yaşayırdıq. Əsgərliyə də 2014-cü ilin aprelində elə nənəsinin evindən gedib. Hərbi xidmətinin demək olar ki, 1 ildən çox hissəsini əsasən Tovuzun ən yüksək mövqelərindən biri olan Muncuqlu kəndindəki Maral postunda xidmət edib. Həmin il avqustun 1-də müddətdən artıq hərbi qulluqçu olan dayım oğlu Qaryağdı Ağdamda ermənilərin snayperdən açdığı atəşlə şəhid olmuşdu. Mən ondan bu xəbəri gizlətsəm də, o, hardansa eşitmişdi. Xallım bu xəbərə ən azı biz qədər pis olmuşdu. Məzuniyyətinin, evə buraxılışın vaxtı olmasa da, dayım oğlunun 7 mərasimində mənə Xalid məzuniyyətə gəlir dedilər. Görüşüb nə yaxşı icazə verildiyini xəbər alanda "Mən Qaryağdının qisasını aldım" dedi. Snayperlə bir erməni vurduğuna görə vaxtından əvvəl 5 günlük məzuniyyət vermişdilər. Yadımdadır, dedim get, paltarını dəyiş, sonra gəl. Hərbi formada yasa gəlməyini istəmədim".

### *Şəhidim Xalid Hassan!*

Filmin kadrları dəyişdikcə, Mayanın üzünün ifadəsi də dəyişir, birdən sevinc parlayır gözlərində, bir kədər dolaşır... Xaliddən danışanda - başdan sonacan gözlərindəki sevinc onu tərk etmir. Sanki cümləsini bitirməmiş, Xalid o biri otaqdan içəri boylanaraq: Ana, yeməyə nə var? deyə soruşacaq və Maya da stuldan sevincək, hövlənak qalxıb ciyərparəsinin boynuna sarılacaq: Balamın ürəyi nə istəyir?- cavabı gözləmədən- Hər şey hazırdı! -deyəcək. Bir də Vətən müharibəsinin başlanmasından danışanda sevinir. Mayanın mediaya müsahibəsi: Xalid 27-si günü zəng edib məni oyatdı ki, ana, arzumuz gerçək oldu, müharibə başlayıb, gəl Vətənə. Hər şeydən hali olandan sonra mən artıq Bakı-Bərdə taksisində idim. Xalid 2020-ci il iyul hadisələrindən sonra səfərbərliyə müraciət etmişdi. Sentyabrın 27-dən səfərbərliklə çağrılmadığından iki dəfə Ağdam Hərbi Komissarlığına könüllü getmək üçün müraciət etdi. Oktyabrın 8-i komissarlıqdan zəng gəldi. Mingəçevirdə təlim keçdikdən sonra Ağdərə, Talış, Suqovuşan istiqamətlərində döyüşlərə atıldı. Hər zəng edəndə ehtiyatlı ol deyirdim. O isə Vətən sağ olsun deyirdi. Hər kəs ona ərəb deyirdi. Hər kəs onun xətrini istəyirdi. Noyabrın 4-də Kəlbəcərdən Şuşaya gedən yolda, alnına dəyən qəlpə yarasından şəhid olub.

***Ayın 5-də aşağı düşürüblər. Babək Səmidli Tofiq Şahmuradova zəng edərək deyib ki, şəhidlərdən biri sənin soruşduğun oğlandır. Pis olub, yenidən soruşub. Deyib ki, Mayanın oğludur. Deyib zəng et, xəbər var, bundan şərəfli ölüm yoxdur. İki gün idi ki, yuxularımı qarışdırırdım. Tanıdığım hər kəsə zəng edirdim. Tofiqə zəng etdim, dedi, Maya, Xalid şəhid olub. Noyabrın 6-da Ağdam rayonunun Quzanlı kənd qəbiristanlığında salınmış Şəhidlər xiyabanında dəfn etdik. Qızı Məryəm bizə yadigarı oldu". "Məğrur qadın!" deməkdən özümü tuta bilmirəm. Qranit qadın adı da Mayaya yaraşır! Dərdin qranitləşdirdiyi Azərbaycan qadın! "Qürbətdə yaşamaq məni Vətənimə daha çox bağlayıb. "Vətən" deyib ağladığım vaxtlar mənə heç bir kömək edə bilməyən, balaca əlləri ilə göz yaşlarımı silən oğlum Xalid, indi İkinci Qarabağ müharibəsində silah tutan əli ilə düşməndən qisas aldı.Saybalımı istəyirdim, oğlum mənə doğma yurdumu verdi".***

Filmin sonu !Hönkürtüm filmin musiqili sonluğuna qarışır eşidilməz olur! Anlayandaki Maya hansısa yazıçının təxəyyül məhsulu deyil, sıralarımızdadır, real insandır, göz yaşını saxlaya bilmirsən! Həyatımızı gözəlləşdirən meyarlar var: ilk sevgi, o sevginin verdiyi çırpıntılar, o sevgidən çiçək olub saçılmaq, gül olub qönçələnmək, sinif yoldaşlarından geri qalmamaq, işıqlı gələcəyə inamlı addımlarla irəliləmək üçün ali məktəb qayğılarına qucaq açmaq, açılı-şirinli tələbəlik həyatı yaşamaq, hərarətli gəncliyin qaynar çağlarını ruhunda, qəlbində, gözlərində hiss etmək, tay-tuşlarına qoşulub asudə, qayğısız, xoşbəxt günlər keçirə bilmək ...Bütün bu meyarları yaşamayan bir olğun qadın düşünün! Onun Vətən sevgisinin bütün acıların -sevinclərin üstündə olduğunu düşünün!

O vətəni bir "ərəb oğluna" necə aşılayıbsa, o "ərəb oğul" anasının sevdiyi Vətəni anasından da çox sevib, canını qurban verəcək qədər çox! Başın sağ olsun, VƏTƏN!

**Bütün şəhidlərin ruhu qarşısında baş əyirəm! Bütün şəhid analarının qarşısında isə dizimi yerə qoyub başımı sinəmə əyirəm! Əziz oxucularımız, "Maya"filmi seyriçilərin dediyi kimi təsirli, ağrılı, qürurlu və uğurlu filmdir!**

**Çalışın, baxın!**

**Əntiqə Rəşid**